*Şahlar İSMAYILOV,*
*Lənkəran*

# *AZƏRBAYCAN ƏSGƏRİ*

**Qırıb dağıtdın sən vətən həsrətin,**
**Göstərdin torpağa öz məhəbbətin.**
**Əbədi yaşasın bu qalibiyyətin,**
**Bir də görməyək biz qəmi, kədəri,**
**Alqış sənə, Azərbaycan əsgəri!**

**Şəhid qanlı düzlərində sevinc var,**
**Anaların üzlərində sevinc var,**
**Sevgilinin gözlərində sevinc var.**
**İllər keçdi, verdin sən şad xəbəri,**
**Alqış sənə, Azərbaycan əsgəri!**

**Vətənimin hər qarışı əzizdir,**
**Sevinən qəlb, inan, coşan dənizdir,**
**Şəhid olsaq,Vətən üçün bir izdir.**
**Xain düşmən babamızın nökəri,**
**Alqış sənə, Azərbaycan əsgəri!**

**Xan Qarabağ, üzün gülsün beləcə,**
**Doğma torpaq, üzün gülsün beləcə ,**
**Vüqarlı xalq, üzün gülsün beləcə,**
**Başın dikdir, sən göstərdin hünəri,**
**Alqış sənə, Azərbaycan əsgəri!**

# *QARABAĞ*

**Arzu, xəyal olur həmdəm,**
**Sevinc gəlir, qurtarır qəm.**
**Düşmənə biz çəkdik sitəm,**
**Uğurludur hər anımız,**
**Qarabağdır ünvanımız!**

**Şəhid qanı yerdə qalmaz,**
**Kimsə bizə kölgə salmaz,**
**Düşmən heç vaxt zəfər çalmaz,**
**Qələbədir hər yanımız,**
**Qarabağdır ünvanımız!**

**Otuz illik həsrətin var,**
**Vətən adlı əsərin var,**
**Böyük, dahi rəhbərin var,**
**Ali Baş Komandanımız,**
**Qarabağıdr ünvanımız !**

**Bitir həsrət, bitir kədər,**
**Zəhmətimiz getməz hədər,**
**Paşinyan da qusar zəhər.**
**Damarlarda haqq qanımız,**
**Qarabağdır ünvanımız!**

---

Ədalət.- 2020.- 10 oktyabr. S. 14